**Avrasya İncelemeleri Dergisi**
***Journal of Eurasian Inquiries***

Avrasya İncelemeleri Dergisi - Journal of Eurasian Inquiries 9, 2 (2020): 171-183
DOI: 10.26650/jes.2020.012

Araştırma Makalesi / *Research Article*

# Əhməd Bəy Ağaoğlu: Hüquqçu Kimliyinin Portret Cizgiləri

# Ahmed bey Agaoglu: Portrait Traits of Identity as a Lawyer

# Hukukçu Kimliğinin Portre Çizgileri

Mehman Dəmirli[1]

[1]**Sorumlu yazar/Corresponding author:** Mehman Dəmirli (Prof. Dr.),
Yakın Doğu Üniversitesi- Girne Üniversitesi, Hukuk Fakültesi, Lefkoşa/Girne, KKTC
E-posta: mdamirli@yahoo.com
ORCID: 0000-0001-8205-2346

**Başvuru/Submitted:** 17.11.2019
**Kabul/Accepted:** 09.09.2020

**Atıf/Citation:** Dəmirli, Mehman. "Hukukçu Kimliğinin Portre Çizgileri.", *Avrasya İncelemeleri Dergisi - Journal of Eurasian Inquiries* 9, 2 (2020): 171-183.
https://doi.org/10.26650/jes.2020.012

**ÖZƏT**

Təqdim edilən məqalədə Əhməd bəy Ağaoğlunun (1869-1939) fəaliyyət və yaradıcılığının yetərincə tədqiq edilməmiş sahələrindən biri – huquqla bağlı sahəsi araşdırılır. Öncə hüquqçu olaraq Ə. Ağaoğlunun çoxyönlü fəaliyyəti ilkin dəyərləndirilməklə, bu fəaliyyətin dörd önəmli istiqaməti müəyyən edilir, eləcə də həmin istiqamətlərin hər biri üzrə Əhməd bəyin töhfələri ümumi olaraq səciyyələndirilir. Sonra hüquqçu pedaqoq kimi Ə. Ağaoğlunun Türkiyənin iki əsas ali məktəbində hüququn tədrisinə töhfəsi diqqət mərkəzinə gətirilməklə, onun konstitusiya hüququ və ümumi hüquq tarixi sahələrindəki dərs kitabları əsas cizgiləri ilə ələ alınır. Daha sonra mütəfəkkirin ictimai-siyasi baxışlarının əks olunduğu əsərləri əsasında onun hüquqi görüşləri ortaya qoyulur, hüquq anlayışı, fərdi azadlıqlar, hüquq və vəzifələrin əlaqəsi, hüquq və din münasibətləri kimi hüququn bir sıra təməl nəzəri məsələlərinə dair fikirləri incələnir.

Araşdırmada Ə. Ağaoğlunun hüquqla bağlı fəaliyyətinin müxtəlif yönlərinin təhlili əsasında onun hüquqçu kimliyinin portreti əsas cizgilərilə canlandırılır. Belə ki, tədqiqat nəticəsində Əhməd bəy göz önündə həm (1) Azərbaycan türklərinin və bütün türk müsəlmanların hüquqlarının, eləcə də qadın hüquqlarının mübariz ve ardıcıl müdafiəçisi kimi, həm (2) Osmanlı və Cümhuriyyət Türkiyəsinin və Azərbaycan Xalq Cümhuriyyətinin ali qanunverici orqanlarında təmsil olunan nüfuzlu millət vəkili kimi, həm (3) hüquqçu pedaqoq kimi və həm də (4) liberal görüşlü hüquqçu düşüncə adamı kimi durur.

**Açar kəlmələr:** Əhməd Ağaoğlu, hüquqçu pedaqoq və düşüncə adamı, konstitusiya hüququ, hüquq tarixi, hüquq qavramı, fərdi azadlıqlar, hüquq və vəzifələrin əlaqəsi, hüquq və din münasibətləri

**ABSTRACT**

In this article one of the unexplored areas, namely the law-related area of activity and creativity of Ahmed bey Agaoglu (1869-1939) is examined. Initially assessing the multi-dimensional activities of A. Agaoglu as a lawyer, four key areas of this activity are identified, and Agaoglu's contributions to each of these areas are generally characterized. Then, the contribution of Agaoglu as a lawyer-pedagogue to the teaching of law in Turkey's two main universities is pointed out and his

This work is licensed under Creative Commons Attribution-NonCommercial 4.0 International License

textbooks on constitutional law and legal history are covered. Further, based on the works of the thinker reflecting his public and political views, his legal views are analyzed and his opinions on a number of theoretical issues of law, such as understanding of law, individual freedoms, the relationship between rights and duties, and the relationship between law and religion, are examined.
In the research, based on the analysis of various aspects of Agaoglu's activity related to law, the portrait of his identity as a lawyer is depicted in its following main traits: (1) as a fighter and consistent defender of the rights of Azerbaijani Turks and of all Turkish Muslims, as well as of women's rights, (2) as an influential deputy represented in the supreme legislative bodies of Ottoman and Republic Turkey and the Azerbaijan Democratik Republic, (3) as a lawyer-pedagogue and (4) as a liberal-minded lawyer-thinker.
**Keywords:** Ahmed Agaoglu, Lawyer Pedagogue and Thinker, Constitutional Law, History of Law, Understanding of Law, İndividual Freedoms, Relationship between Rights and Duties, Law and Religion

**ÖZ**
Takdim edilen makalede Ahmet Ağaoğlu’nun (1869-1939) yeterince incelenmemiş faaliyet ve yaratıcılık alanlarından biri de hukuk alanındadır. Öncelikle, bir avukat olarak A. Ağaoğlu'nun çok yönlü faaliyetinin değerlendirilmesi, bu faaliyetin dört önemli alanını ve Ahmed Bey'in bu alanların her birine katkılarının genel bir karakterizasyonunu belirler. Daha sonra hukuk alanında bir eğitimci olarak Ağaoğlu'nun iki büyük Türk üniversitesinde hukuk öğretimine katkısına odaklanan “Anayasa Hukuku” ve “Genel Hukuk Tarihi” ders kitapları vurgulanmaktadır. Daha sonra düşünürün sosyo-politik görüşlerini yansıtan eserler temelinde hukuki görüşleri, hukuk kavramı, bireysel özgürlükler, hak ve görevler ilişkisi, hukuk ve din ilişkisi gibi bir dizi temel teorik hukuk meselesine ilişkin görüşleri sunulur.

Makalede Ağaoğlu'nun hukuki faaliyetinin çeşitli yönlerinin analizine dayanılarak, hukukçu kimliğinin portresi ana özellikleriyle yeniden canlandırıldı. Nitekim, araştırma sonucunda Ahmed Bey, (1) Azerbaycan Türkleri ve tüm Türk Müslümanların haklarının yanı sıra kadın haklarının militan ve tutarlı bir savunucusu ve (2) Osmanlı ve Cumhuriyet Türkiyesinin ve Azerbaycan Halk Cumhuriyeti’nin en yüksek yasama organlarında temsil edilen nüfuzlu bir milletvekili gibi, (3) hem hukuk eğitimcisi olarak hem de (4) liberal fikirli bir hukuk düşünürü olarak kabul edilir.
**Anahtar kelimeler:** Ahmet Ağaoğlu, anayasa hukuku, hukuk tarihi, hukuk kavramı, bireysel özgürlükler, hak ve görevler ilişkisi, hukuk ve din ilişkisi

## EXTENDED ABSTRACT

Recently, despite the growing interest in the socio-political, scientific, and literary activities of Ahmed Bey Agaoglu (1869-1939) and the emergence of a number of works based on a thorough study of various aspects of his rich creativity, unexplored aspects of the activity and creativity of the thinker still remain. One such unexplored aspect is the law-related activities and creativity of Ahmed Bey, who was a graduate of Sarbonna Law School. Currently there is a clear gap in this area. The purpose of the present research is to fill that gap as much as possible.

In the article, initially assessing the multi-dimensional activities of A. Agaoglu as a lawyer, four key areas of this activity are identified, and Agaoglu’s contributions to each of these areas are generally characterized. Then, the contribution of Agaoglu as a lawyer-pedagogue to the teaching of law in Turkey's two main universities is pointed out and his textbooks on constitutional law and legal history are covered. Further, based on the works of the thinker reflecting his public and political views, his legal views are analyzed and his opinions on a

number of theoretical issues of law, such as understanding of law, individual freedoms, the relationship between rights and duties, and the relationship between law and religion, are examined.

In particular, it is noted that Agaoglu defined law as a dynamic social phenomenon which regulates relationships between individuals and thereby he stood in the position of a sociological approach to law. Agaoglu considered the existence of individual freedoms an important prerequisite for the development of societies and cultures, and highly valued their role. In his view, societies without individual freedoms cannot go ahead. One of the most important components of Agaoglu's understanding of law was the principle of respect for citizens' rights. According to him, societies without rights can not survive and thrive. In such societies, generally, "the concept of law disappears and society is thrown away like a lifeless, inactive toy." Furthermore, where people are ignorant of their rights, “justice is gone, and public life is ruined.” The realization of rights involves the execution of relevant duties as a necessary condition and guarantee. According to Agaoglu, since it is not possible to ensure rights without duty, "to think of duty without right also is to put all human beings in the place of animals." By attaching a broader social and moral meaning on the close relationship between rights and duties, the thinker considered the protection of rights the "highest and most honorable duty" of members of society.

In research based on the analysis of various aspects of Agaoglu's activity related to law, his portrait of identity as a lawyer is depicted in its following main traits: (1) as a fighter and consistent defender of the rights of Azerbaijani Turks and of all Turkish Muslims, as well as of women's rights, (2) as an influential deputy represented in the supreme legislative bodies of Ottoman and Republic Turkey and the Azerbaijan Democratic Republic, (3) as a lawyer-pedagogue, who educated his students in the spirit of respect for the advanced political, legal and moral values of their time, whose textbooks on the subjects of constitutional law and history of law were the first in Turkey in this field, and (4) as a liberal-minded lawyer-thinker, who embraced a sociological understanding of law, advocated the secularization of law by separating it from religion, and considered the extension of individual freedoms an important factor in the development of society, and the protection of human rights and freedoms as the main objective of the democratic state's legal system.

## Giriş

Dövrünün tanınmış intellektuallarından biri olan Əhməd bəy Ağaoğlunun (1869-1939) müxtəlifyönlü fəaliyyət göstərməsi yaxşı məlumdur. İctimai-siyasi xadim, millət vəkili, alim, publisist, pedaqoq, jurnalist, şərqşünas, yazıçı, tənqidçi – Ağaoğlu kimliyini tanıtmaq üçün adətən istifadə edilən peşə və titulların tam olmayan siyahısı belədir! Sarbonna hüquq məktəbinin məzunu olan Əhməd bəyin ali təhsili etibarilə ixtisasca hüquqşünas olması, təəssüflər olsun ki, çox zaman unudulur. Nəticədə mütəfəkkirin fəaliyyətinin bu aspekti onun həyat və yaradıcılığını araşdıran alimlərin diqqətindən kənarda qalmış, yetərincə tədqiq edilməmişdir.[1] Son dövrlər Ağaoğlunun ictimai-siyasi, elmi və ədəbi fəaliyyətinə marağın artması, yaradıcılığının ayrı-ayrı aspektlərinin dərindən araşdırılması və bir sıra sanballı əsərlərin ortaya çıxması fonunda hüquqçu kimi Ağaoğlunun fəaliyyət və yaradıcılığının tədqiqi sahəsində açıq-aydın bir boşluq sezilməkdədir. Təqdim edilən araşdırmanın məqsədi də Ə. Ağaoğlunun hüquqçu kimliyinin portretini əsas cizgiləriylə yaratmaqla həmin boşluğu mümkün qədər doldurmaqdır.

## 1. Hüquqçu Olaraq Ə. Ağaoğlunun Fəaliyyətinin Ümumi Səciyyəsi

Ə. Ağaoğlu sırf hüquqçu peşələrində (hakim, prokuror, vəkil və s.) çalışmasa da, onun fəaliyyəti çox zaman bu və ya digər dərəcədə hüquqla bağlı olmuşdur. Maraqlıdır ki, hüquqçu kimi də Ağaoğlunun fəaliyyəti çoxyönlü idi.

Hələ fəaliyyətinin başlanğıcında Ağaoğlunu mübariz bir hüquqçu kimi Rusiya imperiyasında hər cür siyasi, mədəni və mülki hüquqlardan dini mənsubiyyət prinsipi əsasında məhrum edilmiş Azərbaycan türklərinin və bütün türk müsəlmanların hüquqları, eləcə də qadın hüquqları uğrunda mübarizənin ön sıralarında görürük. Əhməd bəy özünün publisistik və maarıfləndirici yazıları ilə bu sahədə yorulmadan və ardıcıl iş aparır.[2] Həmin dövrdə yazdığı məqalələrində və "İslamda və islama görə qadın" (Агаев 1901)" adlı əsərində bu sahəyə öz qələmi ilə mühüm töhfə verir. O, habelə 1915-ci ildə İstanbulda Rusiyadakı Türk-Tatar Müsəlmanlarının Haqlarını Müdafiə Komitəsinin yaradılmasında və fəaliyyətində fəal iştirak etmişdir. Heç şübhəsiz, hüquqçu olması Əhməd bəyin bu sahədəki fəaliyyətinə xüsusi bir çalar qatmışdır.

Hüquqçu kimi Ağaoğlunun fəaliyyətinin digər mühüm bir aspektini onun millət vəkili olaraq qanundericilik işində iştirakı təşkil edirdi. O, müxtəlif zaman və məkan hüdudlarında bir neçə parlamentdə təmsil olunmuşdur. İlk xalq təmsilçiliyi təcrübəsini Bakı şəhər dumasında qazanmış (1905-1909-cu illərdə bu orqanın qlasnısı – deputatı olmuşdur) Ağaoğlu 1914-1918-ci illərdə Osmanlı V dönəm Məclisi-Məbusanında Karahisar-i Sahib (Afyonkarahisar) məbusu olmuşdur. Əhməd bəy 1918-ci ilin payızında Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinə Zəngəzurdan üzv seçilmiş və burada bitərəflər fraksiyasının tərkibinə daxil olmuşdur. O, 1923-cü ildən 1931-ci ilədək II və III dönəm Türkiyə Böyük Millət Məclisinin Qarsdan millət vəkili olaraq

1 Ə. Ağaoğlunun fəaliyyətinin bu aspektinə indiyə qədər cəmi bir məqalə həsr edilmişdir və onun da 12 səhifəsindən yalnız son 3 səhifəsi mövzuyla birbaşa bağlıdır (Kayabaş 2012: 441-452).

2 Bu barədə ətraflı məlumat üçün bax: (Балаев 2018: 129-167).

çalışmış (TBMM Albümü 2010: 105, 155), onun xarici, "qanuni-əsasi", kitabxana və nizamnamə daimi komissiyalarının üzvü olmuşdur.

Göstərilən qanunverici orqanların hər birində Ağaoğlu xüsusi fəallığı, gərgin və məhsuldar əməyilə fərqlənmiş, bu orqanların işinə mühüm töhfələr vermişdir. Bundan əlavə, Ağaoğlunun qanunvericilik sahəsində fəaliyyətinin mühüm səhifəsini onun Türkiyənin konstitusiya quruculuğunda fəal iştirakı təşkil edirdi. Belə ki, Əhməd bəy 1921 və 1924-cü il konstitusiya dəyişikliklərinin hazırlanmasını həyata keçirən Konstitusiya Komissiyasının üzvü olmuş və onun işində önəmli rol oynamışdır (bax, məs.: Kili 1971: 54-56).

Ağaoğlu müxtəlif vaxtlarda universitet və liselərdə xarici dil, ədəbiyyat, tarix (Türk-Moğol tarixi, Mədəniyyət tarixi) və hüquq dərsləri vermişdir. Əhməd bəyin pedaqoji fəaliyyətində Türkiyənin iki əsas ali məktəbində hüquq fənlərinin tədrisinin xüsusi yeri vardır. O, 1925-ci ildə açılan Ankara Ədliyyə Hüquq Məktəbində həmin ildən 1931-ci ilədək "Hukuk-ı Esasiye" (konstitusiya huququ) dərsləri vermişdir. TBMM-də millət vəkilliyinin sona yetməsilə İstanbula köçdikdən sonra isə Ağaoğlu 1931-1933-ci illərdə İstanbul Darülfununun hüquq fakultəsində ümumi hüquq tarixi fənnini tədris etmişdir. Tədqiqatçılar mədəni və güçlü bir fikir adamı olan Əhməd bəyin tələbələrin təlim və təhsilinə böyük töhfələr verdiyini qeyd edirlər (Yücel 2016: 374). Tədris etdiyi konstitusiya hüququ və ümumi hüquq tarixi fənləri üzrə dərs vəsaitləri Türkiyədə bu sahədə ilklərdən olmaqla, Ağaoğlunun hüquq elminə mühüm xidməti idi.

Ağaoğlunun fəaliyyət və yaradıcılığından bəhs edərkən belə bir məqam xüsusi vurğulanmalıdır ki, nə qədər müxtəlifyönlü fəaliyyət göstərsə də, onun adı tarixə dövrünün böyük düşüncə adamı kimi yazılmışdır. Hüquqçu olması, heç şübhəsiz, Əhməd bəyin ictimai-siyasi baxışlarına təsirsiz ötüşə bilməzdi. Özünün ictimai-siyasi görüşlərini o, çoxsaylı məqalələri ilə yanaşı, "İslamda və islama görə qadın" (1901), "Üç mədəniyyət" (1927), "Sərbəst insanlar ölkəsində" (1933), "Dövlət və fərd" (1933), "İxtilalmı, inqilabmı?" (1942) və s. əsərlərində ortaya qoymuşdur. Bu zəngin elmi irs mütəfəkkirin hüquqi görüşlərini öyrənmək baxımından da mühüm əhəmiyyət kəsb edir. Belə ki, sosial elmlərin bir çox sahəsi ilə (fəlsəfə, sosyologiya, tarix və s.) bağlı olan yuxarıda xatırlanan əsərlərdə müəllif zaman-zaman hüquqa dair baxışlarını da ortaya qoymuşdur.

## 2. Ə. Ağaoğlunun Hüquq Sahəsində Dərs Kitabları

Ə. Ağaoğlunun Ankara Ədliyyə Hüquq Məktəbində 1925-1926-cı dərs ilində birinci kursa, 1926-1927-ci dərs ilində isə ikinci kursa konstitusiya hüququ üzrə oxuduğu mühazirələri müvafiq olaraq 1926-və 1927-ci illərdə ərəb əlifbasıyla "**Hukuk-ı Esasiye Ders Notları**" adıyla nəşr edilmişdir. Kitabın müasir Türkiyə türkcəsinə transliterasiya edilmiş mətni Boğaç Erozan tərəfindən hazırlanmış və 2012-ci ildə Koç Universiteti Yayınları tərəfindən çap edilmişdir (Ağaoğlu 2012). Kitabda, habelə tərtibatçı tərəfindən "Hukuk-ı Esasiye"nin siyasi-tarixi və intellektual kontekstdə tədqiqinə həsr edilmiş araşdırma da yer alır.

Ağaoğlunun "Hukuk-ı Esasiye"sində konstitusiya hüququnun, demək olar ki, əsas mövzuları öz əksini tapmış, suverenlik, dövlətin strukturu, qanunverici, icraedici və məhkəmə orqanlarının

təşkili, hakimiyyətlər bölgüsü, haqq və azadlıqlar kimi təməl məsələlər dövrünün dünya dövlətləri ilə müqayisəli şəkildə işlənilmişdir.

Kitabda müəllif Türkiyə Cümhuriyyətinin konstitusiya praktikasını bir sıra nöqsanlarına görə ciddi tənqid edirdi. Bu sırada örnək olaraq hakimiyyətlər bölgüsü prinsipi əvəzinə hakimiyyətlər birliyi prinsipinin tətbiqinin, ikidərəcəli seçki sisteminin və qanunverici orqanda təmsil sisteminin tənqidini göstərmək olar. Ağaoğlu, əlində hakimiyyət olan hər bir adamın onu sui-istifadə etməyə meylli olduğunu (Ağaoğlu 2012: 66) əsas tutaraq, hakimiyyətlər bölgüsü prinsipini müdafiə edirdi. O, millət vəkillərinin birbaşa seşicilər tərəfindən deyil, "ikinci [dərəcə] seçicilər" vasitəsilə seçilməsinin konstitusiyaya zidd olduğunu açıqca qeyd edirdi (Ağaoğlu 2012: 204). "[B]ütün milləti tam mənasıyla təmsil və əks etdirmək iddiasında olan bir heyətdə (TBMM) millətin içində mövcud olan bütün cərəyanların yer alması" (Ağaoğlu 2012: 205) gərəkdiyini vurğulayan Əhməd bəy "nisbi təmsil" sisteminə üstünlük verirdi. Ağaoğlunun Türkiyədəki tək partiya sistemini də onun demokratiya ilə bir araya sığmaması səbəbilə tənqid etdiyi yaxşı məlumdur. Təqriri-sükun qanununun[3] qüvvədə olduğu dönəmdə konstitusiya hüququnun təməl məsələlərinə dair söylənilən tənqidi fikirlər Ağaoğlunun bu sahədə liberal görüşlü bir düşüncə adamı olduğunu təsdiq etməklə birlikdə, onun çox cəsarətli bir şəxsiyyət olduğunu deməyə əsas verir.

Əhməd bəyin "Hukuk-ı Esasiye"si həmin dövr konstitusiya hüququnun və onun normalarının tətbiqi təcrübəsinin tənqidi qavranılması baxımından bu gün də öz əhəmiyyətini saxlamaqdadır.

Ağaoğlunun İstanbul Darülfununun hüquq fakultəsində tədris etdiyi ümumi hüquq tarixi fənni üzrə 1931-1932-ci tədris ilində oxuduğu mühazirələri "**Hukuk Tarihi**" (Ağaoğlu 1931-1932) adı ilə İstanbulda Hüquq Tələbə Cəmiyyəti tərəfindən nəşr edilmişdir. Onun titul səhifəsində hüquq fakultəsi müdərrislərindən (dilimizdəki bugünkü qarşılığı professordur) Ağaoğlu Əhməd Bəyəfəndinin təqrirləri (verdiyi dərslər, başqa sözlə, mühazirələr) və birinci sinif tələbəsi Nicat bəy tərəfindən edilən deydlər olduğu göstərilir. Araşdırma əsnasında aşkar edildiyi kimi, Əhməd bəy sonralar bu kitabın bəzi hissələrini 1938-ci ildə yayımına yenicə başlanmış "İnsan" məcmuəsində dərc etdirmişdir. Məcmuənin birinci sayında "Türk Hukuk Tarihinde Usul" (Ağaoğlu 1938d), ikinci sayında "Hukukta Tekamül Devirleri" (Ağaoğlu 1938c), üçüncü sayında "Basitten Mürekkebe, Şekilsizlikten Şekilleşmeye Doğru" (Ağaoğlu 1938a), dördüncü sayında "İştirakçilikten Ferdi Mesaiye ve Mülkiyete Doğru" (Ağaoğlu 1938ç) və yeddinci sayında "Dinde Manizme İçtimai Hayatta da Sınıflara ve Büyük Malikanelere Doğru" (Ağaoğlu 1938b) başlıqlı məqalələrı dərc edilmişdir. Bu məqalələrin mətnlərinin "Hukuk Tarihi"nin müvafiq hissələri ilə müqayisəsinin göstərdiyi kimi, onlardan dördü ("İştirakçilikten Ferdi Mesaiye ve Mülkiyete Doğru" istisna olmaqla) cüzi dəyişiklik və dəqiqləşdirmələrlə kitabın ayrı-ayrı hissələrini özündə ehtiva edir. Bu da, fikrimcə, kitabın orijinallığının sübutu kimi qəbul edilə bilər.

3 Türkiyə Böyük Millət Məclisinin qəbul etdiyi 4 mart 1925-ci il tarixli Təqriri-sükun (Asayişin təmin edilməsi) qanunu "sülhü, təhlükəsizliyi, ictimai asayişi və sosial düzəni" pozacaq hər cür "cəmiyyət, təşəbbüs, təxribat və yayını" qadağan etmək məqsədilə verilsə də, əslində donəmin muxalif səslərini susdurmaq üçün çıxarılmışdır.

Yeri gəlmişkən, Ağaoğlunun by kitabı ümumi hüquq tarixi sahəsində türk dilində yazılan ilk ümumiləşdirici əsərlərdən biridir.[4]

Kitabda müəllif, ilk növbədə, ümumi hüquq tarixinin nəzəri-metodoloji məsələlərini nəzərdən keçirir. Bilindiyi kimi, tarixi-hüquqi idrakın (bununla yanaşı, hüquq tarixi elminin) milli ve ümumi hüquq tarixi adlandırılan iki forması mövcuddur. Əhməd Ağaoğlu da belə bir bölgüdən çıxış edir. Onun təbirincə, bir millətin hüquqi müəssisələri ilə hüquqi düşüncə tərzinin inkişafını araşdıran tarixə milli hüquq tarixi, əksinə, umümi bəşəriyyətdə hüquq müəssisələri ilə hüquqi düşüncə tərzinin inkişafını mövzu etmiş olan tarixə isə ümumi hüquq tarixi deyilir (Ağaoğlu 1931-1932: 3). Ə. Ağaoğlu milli və ümumi hüquq tarixlərini beləcə bir-birindən ayıraraq, özünü belə bir sual qarşısında qoyur: “Əcaba bütün bəşəriyyəti ehtiva etmək üzrə ümumi bir hüquq tarixi varmı? Belə bir mövzunun (predmetin) qəbulu təsəvvür edilə bilərmi?” (Ağaoğlu 1931-1932: 3). Ağaoğluna görə, bu sualın milli hüquq tarixinə münasibətdə mövcud olmaması şüphəsizdir, “çünkü eyni mühit içində doğan hüquqi müəssisələrin təhəvvül (dəyişmə) ve inkişafını təqib və tədqiq, və ümumi yürüş istiqamətini təyin eləmək mümkündür” (Ağaoğlu 1931-1932: 3). “Fəqət, əcaba eyni imkan ümum bəşəriyyət içində variddirmi?” sualı alimin sonrakı düşüncələrinin mərkəzində yer alır.

Əhməd bəy qoyulan bu sualı cavablandırarkən, hüquq tarixi elminin tarixinə baş vuraraq qeyd edir ki, XVII-XVIII əsrlərdə hər yerdə və hər zaman tətbiq oluna bilən bir ideal hüquq sisteminin mövcudluğunu müdafiə edən təbii hüquq nəzəriyyəsinin hakim olduğu şəraitdə hüququn tarixi cəhətdən öyrənilməsinə yer verilmirdi (Ağaoğlu 1931-1932: 5). Hüququn tarixi qavranılmasında vəziyyət sxolastik metoddan rasional metoda keçidlə (Ağaoğlu 1931-1932: 7-8), Leybnitsin “tarixi bir hərəkət qanunu mahiyyətində təsəvvür” edən, “bir millətin halını anlayıb gələcəyini kəşf edə bilmək üçün mütləq onun keçmişini öyrənmək lazım” gəldiyini diqqət mərkəzinə gətirən ümumi tarix nəzəriyyəsi və Monteskyenin müxtəlif ölkələrdə fərqli hüquq sistemlərinin mövcudluğu və hər mühitin şərtlərinin hüquqa təsir etməsinə dair görüşləri ortaya qoyulduqdan sonra dəyişməyə başlayır (Ağaoğlu 1931-1932: 6-7). Hər millətin özünə görə bir hüquq anlayışı olduğu görüşünü irəli sürən tarixçı məktəbin, eləcə də təbiət elmlərində təkamül nəzəriyyəsinin ortaya çıxması və xüsusilə də bir sıra yeni elm sahələrində (müqayisəli dilçilik, psixologiya, antropologiya, biologiya, etnoqrafiya və sosiologiya) müqayisəli metodun geniş tətbiq edilməsi şəraitində hüququn da bir təkamül nəticəsi olduğu fikrinin qəbul edilməsi ilə onun tarixi idrakında əsaslı dönüş baş verir (Ağaoğlu 1931-1932: 7-10). Mütəfəkkirin ümumi hüquq tarixinin bir elm sahəsi kimi məhz XIX əsrdə və müqayisəli metodun geniş tətbiqi sayəsində yaranması haqqında fikirlərində haqlı olduğu müasir dövrdə aparılan tədqiqatlar nəticəsində də öz təsdiqini tapmışdır. Belə ki, müəyyən edilmişdir ki, ümumi hüquq tarixinin metodoloji təbiəti onun mükayəsəli hukuk tarihi olarak hakim metodoloji vasitə kimi tarixi-müqayisəli hüquqi yanaşmanın sistematik istifadəsində ifadə olunur (bax: Дамирли 2013: 126-133; Damirli 2016: 141-160).

4 Türkiyədə yazılan ilk hüquq tarixi kitabının müəllifi Mahmud Esad Efendi olmuşdur (Seydişehri 1331 (1915)). 2012-ci ildə bu kitabın iki nəşrı yayımlanmışdır (Seydişehri 2012a, 2012b).

Kitabda daha sonra müxtəlif nəzəriyyələrı (irq, təqlid, tarixi materializm və s.) tənqidi nəzərdən keçirən müəllif, bu nəzəriyyələrin "ayrı-ayrı hər birində bir həqiqət olduğu", lakin onların heç birisinin tam bir həqiqət olmadığı, tam həqiqətin isə bunların məcmusundan ibarət olduğu nəticəsinə gəlir (Ağaoğlu 1931-1932: 33). Əhməd bəy ictimai hadisələrin tədqiqində bu yanaşmalardan hər birini (başqa sözlə, onların hər birinin başlıca saydıqları amillərin – təqlidin, iqtisadiyyatın, iqlimin, mühütin və s. ictimai hadisələrə təsirini) nəzərə almağı, onları sintez etməyi, əgər belə demək mümkünsə, metodoloji plüralizmi (baxmayaraq ki, müəllif özü bu zaman "eklektik metod" ifadəsindən istifadə edir) ən doğru yol hesab edir (Ağaoğlu 1931-1932: 33).

Kitabın sonrakı səhifələrində bəşəriyyətin mənşəyindən başlayaraq hüququn ayrı-ayrı təkamül dövrlərindən bəhs edilir, ictimai siniflər, ailə hüququ, evlənmə üsulları, vərəsəlik, mühakimə üsulu və s. kimi məsələlər üzrə müxtəlif mədəniyyətlərdən, ölkələrdən örnəklər verilir. Bu zaman diqqətəlayiq məqamlardan biri də ondan ibarətdir ki, Roma və İngilis hüquq sistemlərindən kənarda mövcud olan digər sistemlərin də öyrənilməsi zərurətini qeyd edən Əhməd bəy (Ağaoğlu 1931-1932: 11), öyrənilən məsələlər üzrə hər bölümdə türk və ərəblərin hüquqlarından da örnəklər verir. Kitab Roma hüququna dair geniş bölmə ilə başa çatır.

## 3. Ə. Ağaoğlunun Hüquqi Görüşləri

Artıq qeyd edildiyi kimi, Ə. Ağaoğlu ictimai-siyasi baxışlarının əks olunduğu bir sıra əsərlərində zaman-zaman hüquqi baxışlarını da ortaya qoymuş, hüququn bir sıra təməl nəzəri və praktiki məsələlərinə dair fikirlər söyləmişdir. Bu sırada hüquq anlayışı, fərdi azadlıqlar, hüquq və vəzifələrin əlaqəsi, hüquq və din münasibətləri, islam və qadın hüquqları kimi məsələləri xüsusilə qeyd etmək lazımdır. Burada mütəfəkkirin hüquqi görüşlərini müfəssəl olaraq nəzərdən keçirmək imkan xaricində olduğundan, tədqiqatı onun hüquqi baxışlarının özəyini təşkil edən göstərilən məsələləri (islam və qadın hüquqları problemi istisna olmaqla[5]) əsas cizgilərilə nəzərdən keçırməklə məhdudlaşdırmaq məcburiyyətindəyəm.

### *a) Ağaoğlunun hüquq qavramı*

Ə. Ağaoğlu "hüquq nədir?" sualını ən qısa formada "fərdlər arasındakı münasibətlərin təsbiti" kimi cavablandırır (Ağaoğlu 2017: 56).

Maraqlıdır ki, "fərd" kateqoriyası liberal düçüncə adamı kimi Ağaoğlunun bütün ictimai görüşlərinin, o cümlədən hüquqi görüşlərinin çıxış nöqtəsi kimi bir növ aşar kəlmə polu oynayır. Bu baxımdan, ədəbiyyatda haqlı olaraq qeyd edildiyi kimi, liberalizm Ağaoğlunun fikirlərinin onurğasını təşkil edir (Yılmaz 1993: 60).[6] Əhməd bəyin fikrincə, "fərdsiz cəmiyyət düşünmək, əlsiz, ayaqsız, başsız və gövdəsiz insan düşünməkdir" (Ağaoğlu 2017: 106). O, cəmiyyəti də, millətləri də fərdlərin əlaqələrindən ibarət içtimai varlıq kimi görürdü. Odur

5 İslam və qadın hüquqları problemi Ağaoğlu yaradıcılığının müəyyən dərəcədə öyrənilmiş məsələlərindəndir. Bax, məs.: (Asker, Yıldıran, Özkan 2017: 40-50).

6 Ağaoğlu görüşlərinin liberalizm baxımından dəyərləndirilməsinə dair həmçinin bax: (Özavcı: 2015).

ki, Ağaoğluna görə, hüququn mövcud olması üçün ən azı iki insanın olması şərtdir, əks halda hüquq anlayışının özünə ehtiyac qalmır: "Adamlar təkbaşına yaşasaydılar, hüquq anlayışı da yaranmazdı. Hüququn yaranması üçün, heç olmasa, iki insanın mənafeyi toqquşmalıdır. Başqa sözlə, cəmiyyət həyatının doğulması şərtdir" (Ağaoğlu 2016: 120).

Ağaoğluna görə, hüququn digər bir xüsusiyyəti onun dinamikliyidir: hüquq fərdlər arasındakı münasibətlərin təsbiti olduğundan, o, "mahiyyət baxımından hərəkətlidir, dəyişən"dir. "Zaman aşımıyla həyat şərtləri dəyişdiyindən fərdlər arasındakı ilgilər də dəyişir. Dolayısıyla onları təsbit edən prinsiplərin də dəyişməsi gərəkdir" (Ağaoğlu 2017: 56). Əsas funksiyası müntəzəm olaraq dəyişən həyatın tənzimlənməsi olan hüquq bu həyatın tələb və ehtiyaclarını ödəməlidir (Ağaoğlu 2017: 63). Digər tərəfdən, hüquq da öz inkişafında cəmiyyətlərin və mədəniyyətlərin təsiri altında olur; sonunculardakı dəyişikliklər hüquqdakı dəyişiklikləri şərtləndirir.

Beləliklə, Ağaoğlu hüququ fərdlər arasındakı münasibətləri təsbit edən dinamik sosial hadisə kimi müəyyən etmiş və bununla da hüquqa sosioloji yanaşma mövqeyində durmuşdur.

***b) Fərdi azadlıqlar, dövlət və fərd münasibətləri***

Ağaoğlu cəmiyyətlərin və mədəniyyətlərin inkişafında fərdi azadlıqların mövcudluğunu mühüm şərt hesab edir, onların rolunu yüksək qiymətləndirirdi. Onun fikrincə, fərdi azadlıqların olmadığı cəmiyyətlər irəli gedə bilməzlər;

> "Həqiqətdə yaşayan və təkamül edən camaatlarda iləriyə doğru gedişin itici və sürücü amili fərddir" (Ağaoğlu 1933: 33); "camaatların və dövlətlərin irəliyə doğru yürüməlöri və inkişafı üçün birinci şərt dinamik qüvvə olan fərdlər üçün hərəkət və inkişaf imkanıdır. Fərdlərini bu imkandan məhrum edən mühitlər özləri özlərini durğunluğa məhkum edərlər" (Ağaoğlu 1933: 35).

Fərdi azadlıqlara fərqli münasibət Qərblə Şərq arasındakı əsaslı fərqlərin ortaya çıxmasına səbəb olmuşdur:

> "Şərqdə fərd boğulmuş, Qərbdə açılmış", [Şərqdə] "getdikcə azğınlaşan istibdadın təzyiqi altında fərd sıxışdırılmış, zəiflədilmiş, cılızlaşdırılmış", "Qərbdə isə istibdadın getdikcə zəifləməsi sayəsində fərd tədricən hürriyyətlərini əlinə almış və mütəmadi olaraq açılaraq yaşamaq və çalışmaq zövqünü duymuşdur. Nəticədə boğulmuş və öz qını içərisinə girmiş zəif və cılız fərdlərdən təşkil olunmuş Şərq camaatları da boğulmuşlar, zəifləmişlər. Əksinə, mütəmadi qüvvətlənən fərdlərdən təşkil olunmuş Qərb camaatları qüvvətlənmişlər" (Ağaoğlu 1933: 27).

Beləliklə, əgər "Qərbin yüksəlməsində başlıca səbəb fərdi azadlıqların gettikcə genişlənməsi və bunun sayəsində fərdin tədricən açılması olmuşdur"sa (Ağaoğlu 1933: 27), "Şərqin məhkumiyyəti ... doğrudan doğruya fərdin əzilməsinin, fərdə sərbəst düşünmək, sərbəst hərəkət etmək imkanı verilməməsinin nəticəsidir" (Ağaoğlu 1933: 29).

Özünün ictimai görüşlərini libarizm təməli üzərində quran Ağaoğlunun qənaətinə görə, "qüvvətli camaatlar yalnız qüvvətli fərdlərdən təşkil olanlardır. Şərq tarixilə, idarəsilə, qanunlarıyla, dinilə, əxlaqıyla, fəlsəfəsilə fərdi mütəmadi olaraq əzmişdir" (Ağaoğlu 1933: 74). Elə eyni səbəbdən də burada hədəf fərdi bu əzici və öldürücü amillərdən qurtarmaqdır ki, bu da hüquqi vasitələrlə mümkündür.

Bəşəriyyət təkamülünün müşahidəsi Əhməd bəyə iki hadisənin yan-yana yürüməsinə dair bir qanunauyğunluğu qeyd etməyə əsas vermişdir: "bir tərəfdən fərdin mütəmadi olaraq inkişafı…, digər tərəfdən də ... dövlət səlahiyyətlərinin genişlənməsi" (Ağaoğlu 1933: 33). Belə vəziyyətdə Ağaoğlu çıxış yolunu ictima nizamın "ahəngini məhz cəmiyyətlə fərd arasında bu müvazinəti tutmaqla təmin etmək"də görürdü. Onun fikrincə, bu zaman "əsl məsələ dövlətin bu müdaxilə səlahiyyətlərinin hüdudunu təyin etməkdir" (Ağaoğlu 1933: 31).

***c) Hüquq və vəzifələrin əlaqəsi***

Ağaoğlunun hüquq anlayışının önəmli tərkib hissələrindən birini də vətəndaşların hüquqlarına hörmət prinsipi təşkil edir. Onun fikrincə, "hüquqlara qarşı vecsiz qalan cəmiyyətlər" nəinki yaşaya və çiçəklənə bilmirlər (Ağaoğlu 2016: 120), belə cəmiyyətlərdə ümumiyyətlə "hüquq anlayışı yox olur və cəmiyyət cansız, hərəkətsiz bir oyuncaq kimi hara gəldi atılır" (Ağaoğlu 2016: 121). İnsanların hüquqlara biganə, yad qaldığı bu cür cəmiyyətlərdə "ədalət ortadan qalxar və cəmiyyət həyatı pozular. Bu üzdən də cəmiyyət həyatının inkişafından ötrü, həmin cəmiyyətin ayrı-ayrı üzvləri bir-birlərinin haqlarını gözləməli və o haqlara cavabdehliyi bölüşməlidirlər" (Ağaoğlu 2016: 120). Deməli, hüquqların həyata keçirilməsi bunun zəruri şərti və təminatı kimi müvafiq vəzifələrin icrasını ehtiva edir. Əhməd bəyə görə, vəzifəsiz hüquqların təmini mümkün olmadığı kimi, "haqsız da vəzifə düşünmək bütün insanları heyvan yerinə qoymaq"dır (Ağaoğlu 2017: 106).

Hüquq və vəzifələrin göstərilən sıx qarşılıqlı əlaqəsinə mütəfəkkir daha geniş sosial-mənəvi məna yükləməklə, hüquqların müdafiəsini cəmiyyət üzvlərinin bir vəzifəsi, özü də "ən yüksək və ən şərəfli vəzifəsi" hesab edən xüsusi bir baxış sərgiləyir: "hər hansı bir vətəndaşın hüququ tapdalandığı zaman həmin hüququ müdafiə etmək hər bir vətəndaşın borcudur (Ağaoğlu 2016: 119), "başqasının haqqını qorumaq, əslində vətəndaşın öz hüquqlarının müdafiəsinə qalxması deməkdir" (Ağaoğlu 2016: 121). Müəllifin qənaətinə görə, məhz belə "ortaq himayə və qoruqçu vəzifəsini anlayan" cəmiyyətlərdə haqqı tapdayan kimsə qalmır (Ağaoğlu 2016: 121).

***ç) Hüquq və din münasibətləri***

Əhməd Ağaoğlunun diqqət mərkəzində duran məsələlərdən biri də hüquq və din münasibətləri olmuşdur. Bu məsələdən bəhs edərkən Ə. Ağaoğlu "hüquqi məsələlər əsl dinin mövzusu içinə girirmi?" (Ağaoğlu 2017: 63) sualından yola çıxır. Əhməd bəyə görə, "din qul ilə Allahın arasını düzənləyən bir prinsiplər sistemindən ibarət" olduğundan onun "mövzusunu yalnız inanclarla ibadətlərə aid xüsuslar təşkil edir. Bunun xarıcında nə varsa, dinə təsadüfi olaraq

girmişdir” (Ağaoğlu 2017: 63). Bu ikinci dərəcədən olanlar dünya işlərinə aid normalardır. Qurandakı “dünya işlərinə aid ayələrin hamısı maddi səbəblərə dayanaraq meydana çıxan bir ehtiyacın düzənlənməsi” ilə bağlı olmuşdur. Hüququn mahiyyət baxımından dinamik olması da buna rəvac vermişdir (Ağaoğlu 2017: 57). Heç təsadüfi deyildir ki, Quranda dini işlərə dair hökmsüz buraxılmış ayələr olmadığı halda, dünya işlərinə aid nə qədər hökmsüz buraxılmış ayələr vardır (Ağaoğlu 2017: 64). Beləliklə, “dinimizdə dəyişməz və əbədi olan ininclarla ibadətlərdir. Dünya işlərinə aid olan qaydalar isə təsadüfidir, zaman və məkana bağlıdır” (Ağaoğlu 2017: 65).

Bu müddəaları rəhbər tutan Ağaoğlunun qənaətincə, bəhs edilən sahədə düsturumuz belə olmalıdır:

> “İnanclar və ibadətlərdə dinə bağlı olduğumuz halda, dünya işlərində tamamilə sərbəstik. Dünya işlərində istədiyimiz kimi təsərrüf edə bilirik. Maddi həyatımızı ümumun mənfəətini göz önündə tutaraq, istədiyimiz kimi düzənləmək haqqına sahibik” (Ağaoğlu 2017: 65).

Göründüyü kimi, Ağaoğlu hüququn öz mənbəyi etibarilə dindən asılı olmadığına dair fikrini birmənalı şəkildə ortaya qoyur. Bütövlükdə o, hüquq sisteminin sekulyarlığının (dünyəviliyinin) tərəfdarı olmaqla, onu hər vəchlə müdafiə edirdi.

Bununla belə, Əhməd bəy heç də dindən – islamdan üz döndərilməsinin, onun ictimai həyatdan kənarlaşdırılmasının tərəfdarı deyildir, əksinə, islamın əxlaqi əsaslarının ictimai qaydanın təmin edilməsi üçün xüsusi əhəmiyyətini qeyd edirdi:

> “Şəxsi əxlaq baxımından İslamiyyətin qoymuş olduğu əsaslar heç şübhə yox ki, çox yüksəkdir. Doğruluq, mərdlik, ədalət, bağış, başqasının canına və malına, namusuna, düşüncə və duyğularına sayğı, yardım, dayanışma, vəfa, mərdlik, insaf və digər bu kimi fəzilətlər o əsaslardandır” (Ağaoğlu 2017: 80).

Bu əsasların gerçəklikdə müsəlmanların həyatında görülmədiyini ürək yangısı ilə qeyd edən mütəfəkkirin fikrincə, “islamın uca fikirlərinin və əxlaqının canlandırılması, gəlişməsi və yüksəlməsi ancaq bu təsəvvüf yolunu çağın ruhu ilə ahəngli və ağla dayanan bir tərzdə yeniləmək və yüksəltməklə mümkündür” (Ağaoğlu 2017: 85).

## Nəticə

Ə. Ağaoğlu sırf hüquqçu peşələrində çalışmasa da, hüquqla bu və ya digər dərəcədə bağlı müxtəlifyönlü fəaliyyət göstərmişdir. Bu fəaliyyətin təhlili Əhməd bəyi (1) Azərbaycan türklərinin və bütün ***türk müsəlmanların hüquqlarının, eləcə də qadın hüquqlarının mübariz ve ardıcıl müdafiəçisi*** kimi; (2) Osmanlı və Cümhuriyyət Türkiyəsinin və Azərbaycan Xalq Cümhuriyyətinin ali qanunverici orqanlarında təmsil olunan, bu qurumların mötəbər kürsülərindən parlaq və təsirli çıxışları ilə yaddaqalan, qanunvericilik prosesində fəal iştirakı ilə adı bu dövlətlərin parlamentarizm tarixinə yazılan ***nüfuzlu millət vəkili*** kimi;

(3) tələbələrinə dövrünün qabaqcıl siyasi, hüquqi və mənəvi dəyərlərinə hörmət ruhunda təlim və təhsil verən, tədris etdiyi konstitusiya hüququ və ümumi hüquq tarixi fənləri üzrə dərslikləri Türkiyədə bu sahədə ilklərdən olan ***hüquqçu pedaqoq və alim*** kimi və (4) sosioloji bir hüquq qavramına malik olan, din və hüquq sahələrini bir-birindən ciddi şəkildə ayırmaqla hüququn sekulyarlığını müdafiə edən, fərdi azadlıqların genişlənməsini cəmiyyətin inkişafının mühüm amili sayan, insan hüquq və azadlıqlarının təminini demokratik dövlətin hüquq sisteminin əsas məqsədi hesab edən ***liberal görüşlü hüquqçu düşüncə adamı*** kimi səciyyələndirməyə imkan verir.

**Hakim Qiymətləndirmə:** Xarici Müstəqil.
**Maraqların Çatışması:** Müəlliflər tərəfindən heç bir maraq çatışmazlığı elan edilməmişdir.
**Maliyyə Dəstəyi:** Müəlliflər bu araşdırmanın maddi dəstək almadığını elan etdilər.

**Hakem Değerlendirmesi:** Dış bağımsız.
**Çıkar Çatışması:** Yazar çıkar çatışması bildirmemiştir.
**Finansal Destek:** Yazar bu çalışma için finansal destek almadığını beyan etmiştir.

**Peer-review:** Externally peer-reviewed.
**Conflict of Interest:** The author has no conflict of interest to declare.
**Grant Support:** The author declared that this study has received no financial support.

## Qaynaqlar//Kaynakça/References

AĞAOĞLU, Ahmet, (1931-1932), ***Hukuk Tarihi***, ***Ağaoğlu Ahmet beyin takrirleri*** (Talebe Nijat bey tarafından tutulmuş), 1931-1932 ders senesi, Hukuk Talebesi Cəmiyyəti Yayınları, İstanbul: Kurtuluş matbaası.

AĞAOĞLU, Ahmet, (1933), ***Devlet ve Fert***, İstanbul: Sanayiinefise Matbaası.

AĞAOĞLU, Ahmet, (1938a), "Basitten Mürekkebe, Şekilsizlikten Şekilleşmeye Doğru", **İnsan**, C. I, S. 3, 15 Haziran: s. 204-208.

AĞAOĞLU, Ahmet, (1938b), "Dinde Manizme İçtimai Hayatta da Sınıflara ve Büyük Malikanelere Doğru", **İnsan**, C. I, S. 7, 15 Birincikanun: s. 356-360.

AĞAOĞLU, Ahmet, (1938c), "Hukukta Tekamül Devirleri", **İnsan**, C. I, S. 2, 15 Mayıs: s. 117-123.

AĞAOĞLU, Ahmet, (1938ç), "İştirakçilikten Ferdi Mesaiye ve Mülkiyete Doğru", **İnsan**, C. I, S. 4, 15 Temmuz: s. 290-295.

AĞAOĞLU, Ahmet, (1938d), "Türk Hukuk Tarihinde Usul", **İnsan**, Yıl I, S. 1, 15 Nisan: s. 39-43.

AĞAOĞLU, Ahmet, (2012), ***Ahmet Ağaoğlu ve Hukuk-ı Esasiye Ders Notları***, ***1926-1927***, (Hazırlayan: Boğaç Erozan), İstanbul: Koç Üniversitesi Yayınları.

AĞAOĞLU, Əhməd, (2016), ***Sərbəst insanlar ölkəsində***, Bakı: KitabKlubu.org.

AĞAOĞLU, Əhməd, (2017), ***Üç mədəniyyət***, Bakı: KitabKlubu.org.

ASKER, Ali, YIIDIRAN, Canan ve ÖZKAN, Duygu, (2017), "Günümüz Penceresinden Ahmet Ağaoğlu "İslamiyetde Kadın" Eseri Üzerine Notlar", ***II. Uluslararası Sosyal Bilimler Araştırmaları Kongresi Bildiri Kitabı***, (Ed. H. Kara, T. Çetin, Y. İnel), Ankara: 40-50.

DAMİRLİ, Mehman, (2016), «Umumi (Genel) Türk Hukuk Tarihi: Konseptsel Sorunlar”, ***II. Türk Hukuk Tarihi Kongresi Bildirileri***, (C. II), İstanbul: Onikilevha, 141-160.

KAYABAŞ, Ebru, (2012), ““Bir Yavuz Hukukçu”: Ahmet Ağaoğlu”, ***İÜHFM***, C. LXX, S. 1: s. 441-452.

KİLİ, Suna, (1971), ***Assembly Debates on the Constitutions of 1924 and 1961***, Istanbul: Robert College Research Center.

ÖZAVCI, Hilmi Ozan, (2015), ***İntellectual Origins of the Republic: Ahmet Ağaoğlu and the Genealogy of Liberalism in Turkey***, Leyden, Boston: Brill.

SEYDİŞEHRİ, Mahmud Esad Efendi, (1331(1915)), ***Tarih-i İlm-i Hukuk***, İstanbul: Matbaa-i Amire,

SEYDİŞEHRİ, Mahmud Esad Efendi, (2012a), ***Hukuk Tarihi (Tarih-i İlm-i Hukuk)***, İstanbul: Medhal İlmi Araştırma Derneği Yayınları.

SEYDİŞEHRİ, Mahmud Esad Efendi, (2012b), ***Tarih-i İlm-i Hukuk***, İstanbul: Yetkin Yayınları.

***TBMM Albümü (1920-2010)***, (2010), C. I. (1920-1950), Ankara: TBMM Basın ve Halkla İlişkiler Müdürlüğü Yayınları No: 1.

YILMAZ, Murat, (1993), “Ahmet Ağaoğlu və Liberalizm Anlayışı”, **Türkiyə Günlügü**, 23/yaz: s. 56-71.

YÜCEL, M. Serhan, (2016), “Ankara Adliye Hukuk Mektebi’nin İlk Yili”, **The Journal of Academic Social Science,** Yıl IV, S. 26, Mart: s. 361-387.

АГАЕВ, Ахмед бек, (1901), ***Женщина по исламу и в исламе***, Тифлис.

БАЛАЕВ, Айдын, (2018), ***Патриарх Тюркизма. Ахмет бек Агаоглу (1869-1939)***, Баку: Издательский дом TEAS Press.

ДАМИРЛИ, Мехман А., (2013), ***Сравнительное правоведение: Ч. 1. Статус, предмет и система,*** Одесса: Feniks.